

*Bilal ALARLI (HÜSEYNOV)*

## Rəsul Rzaya

1. Yuxarı atılan daşlar
Hər şeirin rəngi olmur,
o qədər saya,
o qədər boz yazılar var ki,
çatları
və tökülmüş suvaqları
basdırmaq üçün
divara vurulmuş
transparanta bənzəyir.
Gurultulu və sürəkli
alqışlar altında səslənən
üvertüralar
ya layla çalır,
ya da ağı pıçıldayır qulaqlarımız
cəngi yerinə.
Rekviyemlər şairi qoyub,
şeiri dəfn edir.
Buz bağlamış yaddaşımızı
əritmir
çiy sözlərin istisi.
Yamsılaya-yamsılaya
ağzı əyilir həqiqətin

eqosunu itirmiş cəmiyyətdə.
İməkləyə bilməyənlərin
sərbəst yerişi
ölçüyə-zada sığmır
qabırğası sınmış
köhnə yolda.
Keçdiyin cığırların üstündən
nə qədər yolsuzun
yol saldığını bilirsənmi?
Arxanca daş atanlar
hansı üzlə dırmaşır
zirvəsində dayandığın şeirə?
Aşağıda duranlar yaxşı bilir
yuxarı atılan daşlar
aşağı düşür.

2. Şeirin şah füquru
Şahların dövranı
mat olanacandı.
Vəzirlik eşqinə düşənlər
baş əymək sənətini öyrənir hələ -
sağa-sola at çapanların
yalı artıq olur.
Bu xanalı meydanda
öz çərçivəsini aşa bilməyənlər yaşayır.
Azad sözün
necə topa tutulduğundan
xəbərin varmı?
Ağlar və qaralar döyüşündə
qırılıb-çatılan piyadaların
şaha çevrilmək arzusu var
heç olmasa.
Kim kimin qibləsinə oturub? –
Kimin nə vecinə!
Haqq kiminlədir? –
Fərqi nədir, əgər bu haqq
yaxşı xidmətə görə verilən
məvacib yerindədirsə!
Şeirimizin metaforası
şairin cibində oynayan
siçanların
üzərində qurulub.
Çoxları bilmir
sən bu metaforalardan
dabanına tüpürüb qaçardın.
Bəlkə də buna görə
ölüm yatağına girən
şeirimizin
cəsədi üzərində
ruh timsalındasan.
Ya şaha çevrilmiş piyadasan,
ya da piyada qalanların şahısan
şeirdə şahlıq edənləri
mat qoyandan bəri.

Kredo 2020.- 16 mart.- S.4.